# Dövlət vəsaiti ilə bərpa layihələri məscid, kilsə və sinaqoqlara heç bir fərq qoymur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**Azərbaycanda tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin və etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzə qədər davam edir. Ölkəmiz elə bir coğrafi məkanda yerləşir ki, burada bəzən böyük dövlətlərin maraqları toqquşur. Ancaq buna baxmayaraq, dini zəmində qarşıdurma baş vermir.**

Dindən öz geosiyasi məqsədləri üçün istifadə edə bilmirlər. Çünki Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, hər zaman öz milli-mənəvi dəyərlərinə sadiqdir. Ölkəmizdə tarixən mövcud olan dini dözümlülük ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği dövlətin prioritetlərindən biri olub. Şübhəsiz ki, Azərbaycanın dövlət-din münasibətləri zəngin tariximizə, eləcə də tolerant ənənələrimizə əsaslanır. Bu model bu gün ölkəmizdə sabitliyin, tolerantlığın, dinamik inkişafın başlıca təminatlarından biridir. Bu gün Azərbaycan dünyada müxtəlif dinlərin mədəni irsinin qorunub saxlanıldığı məkanlardan biri kimi tanınır. Təsadüfi deyil ki, Azərbaycan dini tolerantlığın ən uğurlu modelini yaradıb, ərazisində fərqli mədəniyyət və sivilizasiyaların harmoniyasına nail ola bilib.

**"Azərbaycan dəfələrlə beynəlxalq dini konfransların keçirilməsinə rəhbərlik edib"**

Ümumiyyətlə, Azərbaycanda dövlət-din münasibətlərinin inkişafı, dini tolerantlıq, multikulturalizm, o cümlədən dini dəyərlərimizə olan münasibətlər daim cəmiyyətimizin diqqət mərkəzində olub. Ölkəmizdə dövlət-din münasibətləri istiqamətində həyata keçirilən uğurlu siyasətin davamı olaraq Azərbaycan dəfələrlə beynəlxalq dini konfransların keçirilməsinə rəhbərlik edib. Xüsusilə dinlərarası və mədəniyyətlərarası dialoq, multikulturalizmin inkişafı qeyd edilən konfransların əsas müzakirə mövzuları olub.

**"Dövlət vəsaiti hesabına təmir, bərpa olunan ibadət yerlərinə fərq qoyulmur"**

İlham Əliyev prezident seçiləndən sonra dövlət vəsaiti hesabına təmir, bərpa olunan ibadət yerlərinə fərq qoyulmayıb. Bu siyasət bu gün də davam edir. Azərbaycanda məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar təmir olunub. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülüb və görülür. Təsadüfi deyil ki, ölkəmizin tolerantlıq modeli dünyanın bir çox universitetlərində öyrənilir. Eyni zamanda, Azərbaycanda dini abidələrin, məscidlərin, məbədlərin qorunması, bərpası, dini etiqad azadlığının milli dəyərlərimizin əsasında inkişaf etməsi həmişə diqqət mərkəzində yer alıb. Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə "Təzəpir", "Bibiheybət", "Cümə" və "Şamaxı" məscidlərinin tam əsaslı bərpasının həyata keçirilməsi birbaşa Azərbaycan xalqının milli dəyərlərinin ən yüksək səviyyədə qiymətləndirilməsinin göstəricisidir. Dini adət-ənənələrimizə hörmət əlaməti olaraq dini məbədlərimizin qorunması, onların yenidən qurulması Azərbaycan dövlətinin və xalqının həmişə diqqət mərkəzindədir. Prezident İlham Əliyevin göstərişi ilə və dövlət vəsaiti hesabına məscidlər, katolik və pravoslav kilsələri, sinaqoqlar təmir olunur. Udinlərin kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Azərbaycanda yəhudilər əsasən Bakı, Sumqayıt, Quba və Oğuz şəhərində məskunlaşıblar. Yəhudilər Azərbaycanda 3 icma ilə - Dağ yəhudiləri, Gürcüstan yəhudiləri və Aşkenazi yəhudiləri icmaları ilə təmsil olunurlar. Aşkenazi yəhudilərinin Bakı dini icmasının keçmiş rəhbəri Qennadi Zelmanoviçin sözlərinə görə, hazırda Azərbaycanda 10 sinaqoq fəaliyyət göstərir. Sinaqoqların ikisi Bakıda, altısı Qubada, ikisi isə Oğuzda yerləşir. Azərbaycanda bütün sinaqoqlar təmir olunub. Göründüyü kimi, Azərbaycanda bütün dinlərə, dini konfessiyalara bərabər münasibət var.



**"Ölkədə digər dünyəvi dinlərə, dini abidələrə, kilsələrə, məbədlərə ayrıseçkilik zəminində mənfi münasibət yoxdur"**

Məsələ ilə bağlı "Bakı-Xəbər"ə açıqlama verən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bir sıra amillər Azərbaycanda bütün dinlərə bərabər münasibətin göstərilməsinə öz töhvəsini verib: "Əvvəla, Azərbaycan xalqı tarixən tolerant xalq olub. Ölkəmizdə dini, etnik kimliyindən asılı olmayaraq bütün insanlar mehriban qonşuluq şəraitində yaşayıblar. Ölkənin istər çətin günlərində, isdərsədə xoş günlərində bir yerdə olublar. Vahid amal uğrunda mübarizə aparıblar. Azərbaycanda heç vaxt digər dünyavi dinlərə, dini abidələrə, kilsələrə, məbədlərə ayrıseçkilik zəminində mənfi münasibət olmayıb. Cəmiyyət sözügedən dini məkanlara Allahın evi kimi yanaşır. Həmin dini məkanlar müqəddəs hesab olunub. Elə ölkələr var ki, fərqli dini məkanlar ayrıseçkiliyə, hücuma məruz qalır. Azərbaycanda belə mənfi hallar olmayıb. Digər tərəfdən, 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlətin dini münasibətlərə münasibəti müsbət olub. Dini amidələr bərpa olunub. Xüsusən də İlham Əliyev prezident seçiləndən sonra məscidlərin, dini abidələrin, müqəddəs məkanların qorunmasına diqqət və qayğı daha da artıb. Təmir işləri aparılarkən hansısa fərq qoyulmur. Bura məsciddir, yoxsa kilsə. Həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev Fondu hesavbına məscidlər, kilsələr, məbədlər təmir olunur. Müqəddəs məkanların qorunmasına qayğı daha da artdı. Ölkədə, işğaldan azad olunan ərazilərdə yeni-yeni məşcidlər tikilir. Bütün bunlar çox mühüm hadisələrdir".

*Vidadi ORDAHALLI*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**